AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

16 (134) 19 sentyabr 2019-cu il

İctimai-siyasi qəzet

# İlham Əliyev Bakının Binəqədi rayonundakı 300 nömrəli məktəbin yeni tədris kompleksinin açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 16-da Bakının Binəqədi rayonundakı 300 nömrəli tam orta məktəbin 960 şagird yerlik yeni tədris kompleksinin açılışında iştirak ediblər.

Təhsil müəssisəsinin direktoru İradə Xəlilova görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, məktəbin yeni tədris kompleksində ən müasir şərait yaradılıb. Burada şagirdlər müxtəlif laboratoriyalarda əyani təlimlər keçərək biliklərini artıra, idman zalında idmanın müxtəlif növləri ilə məşğul ola biləcəklər.

Bu təhsil ocağının binası 1932-ci ildə tikilib. O zaman məktəb 400 şagird yerlik olub. Hazırda isə burada yeni istifadəyə verilən tədris kompleksi ilə birlikdə ümumilikdə 1944 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 138 müəllim heyəti məşğul olur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni tədris kompleksinin idman zalında, hərbi otaqda, ekosinifdə, informatika otağında, kimya kabinetində, ayrı-ayrı sinif otaqlarında və yeməkxanada yaradılan şəraitlə tanış oldular, müəllimlər və şagirdlərlə söhbət etdilər, onlara yeni tədris ilində uğurlar arzuladılar.

Məlumat verildi ki, ötən tədris ilində bu təhsil müəssisəsini bitirən məzunların 77 faizi ali məktəblərə qəbul olub. Ümumilikdə, hər il bu məktəbin məzunlarının arasında 600-dan çox bal toplayan və ölkəmizin ali təhsil ocaqları ilə yanaşı, xarici dövlətlərin nüfuzlu universitetlərinə də qəbul olan məzunlar var. Məktəbin şagirdləri bir çox bilik, idman yarışlarında, olimpiadalarda müxtəlif medallar qazanaraq, təhsil ocağını layiqincə təmsil ediblər. Yeni təhsil kompleksi bu uğurların daha da artmasına imkan verəcək. Çünki burada şagirdlər geniş, işıqlı, hər cür zəruri tədris avadanlığı ilə təchiz olunan otaqlarda elmin sirlərinə yiyələnə, müəllimlər isə müasir şəraitdə şagirdlərə dərs deyə biləcəklər.

Hər bir dövlətin inkişafı və gələcəyi onun təhsil səviyyəsi ilə bağlıdır. Bu sahəyə qoyulan investisiya gələcəyə yatırılan sərmayədir. Azərbaycan bu baxımdan hazırda dünyada lider ölkələrdəndir. Heç bir ölkədə bu cür qısa müddət ərzində bu sayda məktəb tikilməyib. Bu istiqamətdə atılan addımlara Heydər Əliyev Fondunun töhfələri də olduqca mühümdür. Fondun bu sahədə həyata keçirdiyi layihələrin coğrafiyası və miqyası ilbəil daha da genişlənir.



Məktəbdə yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva müəllimlər və valideynlərlə görüşüb onları təbrik etdilər.

Birinci sinif şagirdinin nənəsi Fəridə Hüseynova: Əziz Prezidentimiz, hörmətli Mehriban xanım, sizi burada görməyimizə çox şadıq. Mənim nəvəm də bu məktəbin birinci sinfinə qəbul olub. Mən öz adımdan, valideynlər adından Sizə təşəkkür edirəm ki, övladlarımıza bu cür gözəl şərait yaratmısınız. Allah Sizin canınızı sağ, ömrünüzü uzun eləsin.

Prezident İlham Əliyev: Çox sağ olun. Mən də çox şadam ki, uşaqlar yeni dərs ilini yeni məktəbdə başlayırlar. Müəllimlərin də iş yeridir. Valideynlər də, uşaqlar da, müəllimlər də razıdırlar. Bizim əsas məqsədimiz ondan ibarətdir ki, xalqımız razı olsun, xalqımızın yaşayış səviyyəsi gündən-günə qalxsın, uşaqlar gözəl məktəblərdə oxusunlar.

Son illərdə məktəb tikintisi istiqamətində çox böyük işlər görülüb. Təkcə onu demək kifayətdir ki, son illərdə həm Bakı şəhərində, həm bütün bölgələrdə 3200-dən çox məktəb tikilib və ya təmir olunub. Bu il 80-dən çox məktəb yenidən tikiləcək və hələ də təmirsiz olan məktəblərdə gələcək illərdə mütləq təmir işləri aparılacaq.

Bu məktəb doğrudan da göz oxşayır. Bütün lazımi şərait yaradılıb, avadanlıqlarla təchiz edilib. Mənə verilən məlumata görə, məktəbin əvvəlki vəziyyəti çox acınacaqlı idi. Yəni, burada müəllimlər üçün də böyük çətinliklər var idi, uşaqlar da təmirsiz, yararsız vəziyyətdə olan məktəbdə oxuyurdular. İndi bu şərait yaradıldı. Amma bu, işin bir hissəsidir. Əlbəttə, əsas məsələ odur ki, gözəl şəraitlə bərabər, təhsilin səviyyəsi yüksək olsun və burada oxuyan uşaqlar gələcəkdə həyatda layiqli yer tuta bilsinlər. Ona görə təhsilin səviyyəsinin qaldırılması bu gün gündəlikdə duran vacib məsələlərdəndir və bu istiqamətdə də nəticələr var.





Onu da bildirməliyəm ki, son illərdə müəllim peşəsini seçənlərin sayı artır. Müəllim Azərbaycanda həmişə çox hörmətli peşə olub. Həmişə müəllimə böyük hörmət olub. Bu gün isə bu, daha da yüksək səviyyədədir. Müəllimlərin əmək haqlarının artırılması, iş şəraitinin yaxşılaşdırılması bu nəticəyə gətirib çıxarır ki, müəllim olmaq istəyənlərin sayı əvvəlki illərlə müqayisədə böyük dərəcədə artıb. Bir daha uşaqları, valideynləri, müəllimləri yeni məktəbin tikintisi ilə əlaqədar təbrik edirəm.

Məktəbin kimya müəllimi Yaqut Mönsümova: Möhtərəm Prezident, icazə verin, mən də kollektivimiz adından Sizə minnətdarlığımızı çatdırım. Sözün düzü, minnətdarlığımızı çatdırmaq üçün söz tapa bilmirik. Cənab Prezident, yeni məktəblər tikirsiniz, təmir etdirirsiniz. Bu, təhsilə olan münasibətdir. Bu, dövlətə olan münasibətdir. Sizin tapşırığınıza əsasən tikilmiş bu yeni məktəb binası “Bilik günü”ndə bizə ən gözəl hədiyyədir. Biz hər zaman Sizin qayğınızı hiss edirik. Belə gözəl, möhtəşəm məktəb binasının istifadəyə verilməsi biz müəllimləri ürəkdən sevindirir, daha yaxşı işləməyə həvəsləndirir, məsuliyyətimizi daha da artırır. Mən məktəbimizdəki kimya laboratoriyasını, kabinetləri gördüm. Düzü əvvəllər belə laboratoriyaları, kabinetləri biz ancaq filmlərdə görürdük. İndi bu, Azərbaycanın reallığıdır.

Bilirik, dünyada bir çox münaqişələr, problemlər baş verir. Azərbaycanımızda Sizin sayənizdə sabitlikdir, əmin-amanlıqdır. Bu, Sizin uzaqgörən siyasətinizin nəticəsidir. Əldə olunan uğurlarda əzizimiz, çox hörmətli Mehriban xanımın da böyük xidmətləri var. Mehriban xanım, biz Sizi dünyalar qədər sevirik, sevgimizi çatdırmaq üçün sözlər acizdir. Bir daha çox sağ olun ki, dəyərli vaxtınızı ayırıb bizimlə görüşə gəlmisiniz.

Cənab Prezident, bu gözəl məktəbə, ümumiyyətlə, gördüyünüz bütün işlərə görə Sizə kollektivimiz adından minnətdarlığımızı bildiririk. Allah Sizi, əzizimiz Mehriban xanımı, bütün ailənizi qorusun.

Prezident İlham Əliyev: Çox sağ olun. Xoş sözlərə görə təşəkkür edirəm. Sizə bir daha uğurlar arzulayıram, sizi bir daha təbrik edirəm. Əminəm ki, burada oxuyan uşaqlar gələcəkdə həyatda layiqli yer tutacaqlar və dövlətimiz, xalqımız üçün böyük işlər görəcəklər, bizim ümumi inkişafımıza öz töhfələrini verəcəklər.

Sonda xatirə şəkli çəkdirildi.

## Руководителю Представительства Союза Азербайджанской Республики Халилову Джалилу Малик оглы



Уважаемый Джалил Малик оглы!

Многонациональный состав Союза граждан и организаций по сохранению историко-культурного наследия «Международный Союз «Наследники Победы»» (далее Союз) благодарит Вас за оказываемую поддержку в реализации международных проектов, направленных на укрепление дружбы между народами и сохранение памяти о Великой Победе 1945 года в Азербайджанской Республике, России и странах мира.

Представительством Союза в Калининградской области Российской Федерациив период с 30 августа по 01 сентября 2019г, совместно с Калининградским Советом ветеранов Великой Отечественной войны и Военно-морского флота, Варминьско - Мазурским отделением Союза военнослужащих Войска Польского (Республика Польша), при поддержке Управления по внутренней политике Правительства Калининградской области, под патронажем Командующего дважды Краснознамённого Балтийского флота, проведен Международный фестиваль патриотической песни «Светлогорск-2019» (далее Фестиваль) В конкурсной программе Фестиваля приняли участие всего 88 самодеятельных артистов, старшему из которых 94 года, а младшему 8 лет, в том числе 14 коллективов и солистов из России, Польши и, впервые, представитель Азербайджанской Республики, благодаря Вашей активной деятельности направленной на укрепление дружбы между народами.

Участиев Фестивале представителя Азербайджанской Республики Мамедзаде Рауф Фаик-оглы стало успешным. Мамедзаде Рауф Фаик-оглы стал обладателем Гран-при Международного фестиваля патриотической песни «Светлогорск-2019», под девизом «Музыкой едины». По итогам конкурсов он увез в солнечный Азербайджан главный «трофей» - кубок, а также всеобщую любовь и признательность участников и гостей Фестиваля. При прощании он заверил, что в следующем году непременно приедет в янтарный край не только потому, что это - обязательное условие Фестиваля, но и потому, что был просто в восторге от теплого приема зрителей и, вообще, жителей Калининградской области.

Общее духовное пространство, программы мира и добра, Великая Победа над фашизмом, достигнутая общими усилиями всех народов Советского Союза, антифашистских сил, стран антигитлеровской коалиции является основным звеном, связывающим и сплачивающим, как ряды ветеранов, так и народы мира, миролюбивую и прогрессивную общественность.

В рамках развития дружбы и сотрудничества и празднования 75-ой годовщины Великой Победы 1945 года, надеемся на эффективное сотрудничество в сфере духовно-нравственного воспитания молодежи, на основе сохранения памяти о героях войны, преемственности и сохранения традиций историко-культурного наследия нашей Родины и укрепления дружбы между народами мира.

Калякин В.В.
Президент Международного Союза «Наследники Победы»

# АБАСОВ МАЗАИР ГАМИД ОГЛУ



Мазаир Гамид оглу Абасов родился б Баку в семье служащего. В 1938-1937 гг. - студент Всесоюзного химико-технологического института в г. Одесса. В 1937 г., будучи студентом второго курса, был мобилизован в ряды вооруженных сил и направлен на учебу в Военно-морское училище им. Сталина на отделение лётного состава в г. Ейск Краснодарского края. После трехлетней учебы в 1940 году в звании пилота-лейтенанта назначен командиром лётного состава ВВС Черноморского флота.

> «Мазаир Абасов удивительно тёпло говорил о боевых делах своих подчиненных, почти не обмолвливался о себе. А ведь он - человек легенда!».
>
> Аслан Везиров, Герой Советского Союза

### Война

Войну Мазаир Абасов встретил в авиационном полку 63 авиационной бригады в должности командира летного экипажа. Немецкая авиация бомбила Севастополь, а уже в ночь на 23 июня авиация Черноморского флота произвела первый налет на военные объекты противника, расположенные на территории Румынии. Последовали три налета на города Констанцу и два - на Сулйну, в итоге были уничтожены сотни вагонов с нефтью, а её добыча на некоторое время полностью остановилась.

В первый день войны командир звена М.Абасов получил боевое задание нанести боевой удар. Звено Мазаира Абасова взлетело и появилось в небе над территорией противника, на которой четко просматривались замаскированные аэродромы, вражеские машины, танки. При первом же заходе серия бомб поразила эти объекты. Мазаир ясно видел как горели суда, складские амбары с нефтью, вся прибрежная полоса Констанцы была охвачена огнем и черным дымом. Это боевое задание он выполнил на высоком профессиональном уровне, блестяще, без потерь.

На четвертый день войны при выполнении очередного задания на звено М.Абасова напали немецкие истребители «мессершмитты». Командир приказал сомкнуть строй. Стрелки отбили три атаки. С поврежденным мотором М.Абасов вступил в неравный бой и сбил один истребитель, летчик другого вражеского самолета покинул «поле» воздушного боя. Когда оба мотора вышли из строя, Мазаир мастерски посадил самолет на воду. Шесть суток экипаж добирался до родных берегов, находясь в бушующем море без еды и пресной воды. На шестые сутки изможденных летчиков подняли на борт военного корабля, а через несколько дней экипаж М.Абасова вернулся на свою базу. Это был редчайший случай в истории авиации, когда сухопутную машину без работающих двигателей так мастерски удалось посадить на воду.

31 августа 1941 г. боевое звено М.Абасова в очередной раз поднялось в небо и взяло курс на намеченный объект. В самый разгар боевой атаки его бомбардировщик атаковали два «мессершмитта». Самолет загорелся и начал терять высоту, на командире задымилась одежда, пламя обжигало лицо и руки. Но М.Абасов успел посадить самолет, спасти экипаж, получив при этом тяжелые ожоги. В бакинском госпитале, куда был доставлен обожженный летчик, медики боролись за его жизнь. Находясь на больничной койке, он и сам боролся с тяжелейшим ранением. Котда М.Абасову сняли повязку он, увидя свет, облегченно вздохнул - «...инвалид, но со зрением!»

Тогда отважному лётчику было всего 23 года, в небо он больше никогда не поднимался...

За подвиги, совершенные в битвах с врагом, Мазаир Абасов был награжден орденами Красного Знамени, Отечественной войны 1-ой степени, четырьмя боевыми и 13-ю юбилейными медалями. Он также удостоен Почетных знаков Совета ветеранов стран СНГ «Ветеран» и «Ветеран Российского Комитета ветеранов войны».

### Пламенный патриот, талантливый ученый

После излечения в госпиталях от тяжелейшего ранения в 1942 году в течение 20 лет Мазаир Абасов проработал в системе Бакинского городского совета, занимал ряд руководящих и выборных должностей, избирался депутатом Бакинского и районных советов столицы нескольких созывов, а в 1955 году был избран депутатом Верховного Совета Азербайджанской ССР пятого созыва.

В 1950 г. МАбасов окончил исторический факультет Азербайджанского государственного университета.

Наряду с работой в советских органах, М.Абасов проявлял большой интерес и к научной работе. В 1957 году был зачислен диссертантом кафедры истории КПСС Азербайджанского государственного университета и в 1960 г. защитил кандидатскую диссертацию на тему: «Помощь фронту азербайджанской партийной организации в годы Великой Отечественной войны (1941-1945гг.)». Одновременно была издана его брошюра «Коммунистическая партия Азербайджана в борьбе за усиление помощи фронту».

В 1963 году М.Абасов был принят на работу в Институт истории АН Азербайджана. С этого времени им написан ряд важных научных трудов и статей, посвященных трудовому героизму азербайджанского народа в период Великой Отечественной войны. В 1967 году Аббасов опубликовал монографию «Баку в годы Великой Отечественной войны», на основе которой была защищена его докторская диссертация. В 1990 году была издана его вторая крупная монография «Бакинская городская партийная организация в 1941—1945 годы», в которой Мазаир Аббасов, на документальной основе, доказал, что главным источником топлива СССР в годы войны была бакинская нефть.

Мазаир Аббасов также составил и опубликовал сборники документов «Азербайджанская ССР в период Отечественной войны», «Ветераны вспоминают» (1985), «Слава и бессмертие» (1987). Всего издал три крупные монографии, 10 книг. Также руководил изданием сборника «Памятники истории и культуры Азербайджанской ССР». Также Аббасов был соавтором VII последнего тома издания «История Азербайджана». Дважды Мазаир Аббасов был награждён Почётными грамотами Верховного Совета Азербайджанской ССР.

Много лет Аббасов возглавлял совет ветеранов Сабаильского района города Баку. Президент Азербайджана Гейдар Алиев наградил Аббасова орденом «Слава». В 1995 году по случаю 50-летия победы над фашизмом в составе делегации участвовал в праздничных торжествах Лондоне, Париже и Москве.

В связи с 80-летием со дня рождения ветеран войны, ученый-историк Мазаир Абасов был награжден высшим орденом Азербайджанской Республики.

За два года до смерти Мазаир Аббасов издал книгу о жизни и деятельности одного из первых шейх уль-исламов Азербайджана Абдуссаламе Ахундзаде и его последователе Ахунд-аге Ализаде.

Военный летчик, ветеран ВОВ Абасов Мазаир Гамид оглы скончался в 2002 году.

# Görkəmli ictimai-siyasi xadim Sultan Məmmədov



Sultan İsrafil oğlu Məmmədov Azərbaycan xalqının görkəmli ictimai-siyasi xadimidir.

Sultan Məmmədov hər zaman xalqına göstərdiyi diqqət və qayğı ilə yaddaşlarda özünün ali insani keyfiyyətlərinin daşıyıcısı olduğunu təsdiq etdi. El arasında ağsaqqal kimi ali titul qazandı.

Sultan İsrafil oğlu Məmmədov 10 mart 1938-ci ildə Astara rayonunda anadan olub. 1965-ci ildə Bakı Dövlət Universitetini, 1978-ci ildə Bakı Ali Partiya Məktəbini bitirib. 1971-73-cü illərdə Astara şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, 1973-77-ci illərdə Astara rayon partiya komitəsinin katibi, 1977-1980-ci illərdə Astara rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, 1980-1988-ci illərdə Lerik rayon partiya komitəsinin birinci katibi, 1988-1991-ci illərdə Astara rayon partiya komitəsinin birinci katibi, 1992-1995-ci illərdə isə Azərbaycan Respublikası Mənzil-kommunal Təsrrüfatı nazirinin birinci müavini vəzifələrində çalışıb.

Üç çağırış Azərbaycan SSR Ali Sovetinin, Azərbaycan Respublikası Milli Şurasının üzvü, Mənzil-kommunal daimi komisiyasının sədri olub. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan-İran dotluq qrupunun rəhbəri kimi fəaliyyət göstərib. Sultan Məmmədov ömrünün 50 ildən çox hissəsini SSRİ zamanında yaşayıb. Həmin vaxtlarda da o, xalqına göstərdiyi diqqət və qayğı ilə yaddaşlarda özünün ali insani keyfiyyətlərinin daşıyıcısı olduğunu təsdiq edib. O, elə o vaxtlardan el arasında özünün "yaxşı adam", "ağsaqqal" kimi ali titullarını qazanıb. Yorulmaz fəaliyyəti, gərgin zəhməti dövlət tərəfindən də qiymətsiz qalmayıb. Səmərəli fəaliyyətinə görə "Şərəf nişanı", "Xalqlar dostluğu" ordenləri, bir sıra medallar və fəxri fərmanlarla təltif edilib. Yorulmaz fəaliyyəti, gərgin zəhməti dövlət tərəfindən də qiymətsiz qalmayıb. Səmərəli fəaliyyətinə görə "Şərəf nişanı", "Xalqlar dostluğu" ordenləri, bir sıra medallar və fəxri fərmanlarla təltif edilib. Bir həqiqət var ki, onun ən böyük mükafatı halal zəhməti ilə qazandığı el məhəbbətidir. Sultan Məmmədov Azərbaycan ictimai-siyasi həyatında fəal iştirak etmiş, müdrik ağsaqqal mövqeyi ilə seçilmişdir. O, Respublikamızın hər yerində hörmətli ağsaqqal kimi qəbul edilib, hörmət və ehtiramla qarşılanmışdır.

O, ictimai xadim kimi respublikamızın inkişafi üçün əlindən gələni əsirgəməmiş, xüsusən Milli Məclisində İran İslam Respublikası ilə dostluq əlaqələrinin qurulmasında böyük rolu olmuşdur. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin etimad göstərdiyi kadrlardan olan Sultan müəllim, həmişə Ulu öndərin ona olan etibarını ləyaqətlə, sədaqətlə daşımışdır.

Respublikda Veteranlar hərəkatının həyata keçirilməsində Sultan müəllimin fəaliyyəti danılmazdır. Respublika Veteranlar Təşkilatı ilə hər zaman əlaqədə olmuş, Təşkilatın həyata keçirdiyi tədbirlərdə ağsaqqal ziyalı kimi iştirak edib, gənclərin vətənpərvər ruhda tərbiyə edilməsində əlindən gələni əsirgəməmişdir.

Sultan Məmmədovun vəfatı Azərbaycan xalqı və ictimaiyyəti üçün böyük itki oldu. Onun xatirəsi həmişə onu tanıyanlar tərəfindən yad ediləcək, keçdiyi şərəfli ömür yolu hər bir Azərbaycan gənci üçün örnək olacaqdır.

***Cəlil Xəlilov***
***Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik***

# *Döyüş ruhlu şair ömrü yaşadı...*



Daxili Qoşunların Veteranlar Şurasının üzvü, Sabunçu Rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, şair, pedaqoq, ehtiyatda olan mayor Elxan Mirzəyev (Elxan Xəzər) ağır xəstəlikdən sonra vəfat edib. Bu itki Daxili Qoşunların şəxsi heyəti və veteranlarını, Elxan müəllimin əsərlərinin çoxsaylı oxucularını, onun bilik verdiyi və tərbiyə etdiyi gəncləri, ümumilikdə, bütün onu tanıyanları dərindən sarsıdıb. O, ziyalı zirvəsinə ucalmış, parlaq istedada malik vətənpərvər insan idi.

E.Mirzəyev şərəfli və ləyaqətli bir ömür yaşayıb. Onun həyat yolu Vətənə fədakar xidmət nümunəsidir. 1955-ci il avqustun 28-də Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Vənənd kəndində dünyaya göz açan E.Mirzəyev orta məktəbdə oxuduğu illərdən ədəbiyyata, poeziyaya xüsusi maraq göstərib. 1972-ci ildə "Yeni Ordubad" qəzetində ilk şeirləri çap olunub. 1981-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsini bitirib.

E.Mirzəyev 20 ildən artıq bir müddətdə daxili işlər orqanları və Daxili Qoşunların sıralarında xidmət yolu keçib. Bir sıra məsul vəzifələrə təyin olunub. Hərbçi karyerasında mayor hərbi rütbəsinədək yüksəlib. Daxili Qoşunların hərbi hissələri və Baş İdarəsində şəxsi heyətin təlim-tərbiyəsi işinin təşkilində təqdirəlayiq əmək sərf edib.

Respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə zabit olaraq iştirak etmiş E.Mirzəyev düşmənə qarşı qətiyyətlə vuruşub. Döyüşən hərbi hissə komandirinin müavini vəzifəsində öz fədakarlığı ilə döyüşçülərə nümunə olub, onları mübarizliyə ruhlandırıb. Ağdərə cəbhəsində qanlı döyüşlər zamanı yaralanan və kontuziya olan, həmçinin, bir müddət sonra ağır bədən xəsarəti alan E.Mirzəyevin yaddaşında müharibə xatirələri silinməz iz buraxıb.

Daxili Qoşunların mətbuat orqanı olan "Əsgər" qəzetinin fəaliyyətində E.Mirzəyevin də xidmətləri var. Belə ki, o, bir müddət "Əsgər" qəzetinin redaktoru vəzifəsində xidmət edərək, redaksiyanın yaradıcı potensialının inkişafına öz layiqli töhfəsini verib. Onu da xüsusi vurğulamaq lazımdır ki, ölkəmizdə hərbi jurnalistika sahəsinin formalaşmasında E.Mirzəyev də öz zəhmətini əsirgəməyib.

Ədəbi yaradıcılığı Elxan müəllimin ömür yolunda xüsusi yer tutur. O, Elxan Xəzər imzası ilə yüksək bədii dəyərə malik nəzm və nəsr əsərlərini ərsəyə gətirib. Onlarla kitabın müəllifi olan ədibin çoxşaxəli yaradıcılığının baş mövzusu vətənpərvərlikdir. Qələmə aldığı "Əsrin cinayəti", "Şəhid şəhər", "Örnək", "Dəyanət", "Mübariz", "Bizim Türkiyə", "Əzəmət", "Tək qalmış ana" və digər maraqlı poemaları ilə o, müasir ədəbiyyatımızda öz möhürünü vurub.

Elxan Xəzər "Alınmaz qala", "Məsafə", "Günah", "Vicdanın üsyanı", "Tanrı cəzası", "Dəyişən adam", "Cavab", "Tələ", "Qaniçənlər", "Faşizmi kölgədə qoyanlar" və digər pyes, povest, hekayələrin müəllifidir.

Azərbaycan ədəbiyyatının tanınmış simaları: Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Fikrət Qoca, Nəriman Həsənzadə, Qılman İlkin Elxan Xəzərin yaradıcılığına yüksək qiymət vermişlər. Təsadüfi deyil ki, Elxan Xəzər "Qızıl qələm" mükafatına layiq görülüb.

Şairin şeir və poemalarında Daxili Qoşunların hərbi qulluqçularının Vətənə sədaqəti və qəhrəmanlığı dolğun tərənnüm olunub. Daxili Qoşunların döyüş yolunun müxtəlif məqamları bədii çalarlarla məhz Elxan Xəzərin yaradıcılığında öz əksini tapıb.

Elxan müəllim respublika veteran hərəkatının fəallarından biri idi. Sabunçu Rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının rəhbəri və Daxili Qoşunların Veteranlar Şurasının üzvü kimi veteranların ictimai mənafelərinin qorunması, onların həmrəyliyinin möhkəmləndirilməsi, cəmiyyətdə hərbi-vətənpərvərlik tərbiyəsi işində rolunun gücləndirilməsi yönündə var gücü ilə çalışırdı. Onun məktəblilər, tələbələr, əsgərlər qarşısında vətənpərvərlik mövzusunda çoxsaylı çıxışları hər bir auditoriyaya ruh yüksəkliyi və əzmkarlıq aşılayırdı.

Təcrübəli pedaqoq kimi də gənclərin milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə olunması, Vətənin müdafiəsinə hazırlanması və savadlı nəslin formalaşması naminə yorulmaz fəaliyyət göstərirdi.

E.Mirzəyev Azərbaycan Respublikası Prezidentinin 10.03.2012-ci il tarixli sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunub.

Mərhum veteran və şairin həyat yolu və yaradıcılığı barədə bugünədək bir sıra kitablar işıq üzü görüb, dövri mətbuatda məqalələr dərc edilib.

E.Mirzəyevin işıqlı xatirəsi həmişə qəlbimizdə yaşayacaqdır.

***Allah rəhmət eləsin!***

Yalçın Abbasov

AZƏRBAYCAN VETERANI

# Şəkinin 100 yaşlı veteranı dünyasını dəyişdi

2019-cu ilin avqust ayında tarixdə Şəkinin 100 yaşlı veteranı Salahov Yusif dünyasını dəyişdi. Şəkidə hamının tanıdığı həyatsevər, coşqun təbiətli, həmişə nikbin görünən və gənclərə vətənpərvərlik, həyatsevərlik aşılayan Yusif kişi olduqca çətin, məşəqqətli və eyni zamanda şərəfli bir həyat yolu keçmişdir.

Salahov Yusif Əsgər oğlu 1920-ci ilin yanvar ayında, Şəki rayonunun Baş Göynük kəndində anadan olub. Orta məktəbi bitirib Şəki Kənd Təsərrüfatı Texnikumuna qəbul olub. Lakin, 1940-cı ildə təhsilini bitirmədən hərbi xidmətə yollanıb. İkinci Dünya müharibəsində iştirak etmişdir, döyüşlərin birində ağır yaralanmışdır. Bir qədər səhhətindəki problemlər aradan qalxandan sonra, Baş Göynük Lenin adına kolxozda aqrotexnik kimi əmək fəaliyyətinə başlamışdır.

1970-1980-cı illərdə Şəkidə yaradılan Təsərrüfatlararası Cins Mal-qara Birliyinin tikintisində təcrübəli tikinti ustası kimi fəaliyyət göstərmişdir.

Böyük Vətən müharibəsi veteranı olmaqla yanaşı, eyni zamanda, 1980-cı ildən Əmək veteranı, 1999-cu ildən Yeni Azərbaycan Partiyasının üzvü olub.

Yusif Salahov rayonumuzda yerləşən Sərhəd Qoşunları və Daxili Qoşunların əsgərləri, Pedoqoji Universitetin tələbələri, orta məktəb şagirdləri ilə Vətənpərvərlik, Ölkəmizi sevək, Prezidentimizi dəstəkləyək və bu kimi mövzularla görüşlərdə həmişə fəal iştirak edər, tələbələr və şagirdlərlə əylənməyi, hətta onlarla rəqs etməyi sevərdi.

Yusif Salahov eyni zamanda xoşbəxt ailə sahibi idi. 4 oğul, 2 qız, 14 nəvə və 15 nəticəsi var.

Yusif Əsgər oğlunun 100 yaşının tamam olmasına cəmi 5 ay qalmışdı ki, qəfil dünyasını dəyişdi. Bizlərə əlvida dedi. Özünün zarafatla söylədiyi" artıq o dünyaya köçmək vaxtıdır" sözü gerçəkləşdi.

Allah Yusif kişiyə rəhmət eləsin. Onun əziz xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Mərhum, müharibə veteranı Yusif Salahov ölümündən qabaq övlad və nəvələrinə aşağıdakı nəsiyyət şeirini yazmışdır:

*Ömrümü vurdum başa*
*Çatmışam mən yüz yaşa.*
*Allahdan çox razıyam,*
*Başım dəyməyib daşa.*

*El içində hörmətim*
*Qəzetlərdə adım var.*
*Çox qiymətli ordenim,*
*Bir çox medallarım var.*

*Ey mənim övladlarım*
*Siz də belə ucalın*
*Mən gedəri olmuşam,*
*Siz də salamat qalın.*



Mustafa Əhmədov,
Şəki şəhər Veteranlar
Təşkilatının sədri

# İşinin vurğunu olan insan

Abdulhəsən Ağayev 1947-ci ildə Qobustan rayonunun Poladlı kəndində dünyaya göz açıb.

Mərhum Ağadayı kişinin bu evi həmişə el dili ilə desək qonaqlı-qaralı olub. Balaca Abdulhəsən də həmin qonaqların xeyir-duasını alaraq, öz bəhrəsini görmüşdür. Atalar demişkən "hər ağızda bir dua var" kəlamı yerinə düşmüşdür.

Orta məktəbi bitirdikdən sonra sənədlərini o vaxtkı Bakı Plan Uçot texnikumuna verir. Həmin texnikuma daxil olur və müvəffəqiyyətlə bitirərək mühasib ixtisasına yiyələnir.



Doğma kənddəki təsərrüfatda ixtisası üzrə işləməyə başlayır. Onun işgüzarlığını görüb daha mühüm vəzifələrə irəli çəkirlər. Baş mühasib, kolxoz sədri, sovxoz direktoru və Kənd İcra Nümayəndəsi kimi vəzifələrdə çalışır. Səmimiyyətinə görə elə gənc yaşlarından "el ağsaqqalı" kimi tanınır. Ona müraciət edən hər bir insana qayğı ilə yanaşır.

Həmişə ictimaiyyətlə bir yerdə olan A. Ağayev dövlətimizin hər sahədə uğur qazanmasında fəal iştirak edir.

Abdulhəsən Ağayev 2012-ci ilin oktyabrında Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının Qobustan Rayon təşkilatının sədri seçilir.

O, mütəmadi olaraq rayonda yaşayan müharibə, əmək və silahlı qüvvələrin veteranları ilə görüşlər təşkil edir, onların hər bir probleminə diqqətlə yanaşır.

Son dövrlər təşkilatın keçirdiyi tədbirlərin xronikasına qısa nəzər salaq:

Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədovun yaxından iştirakı ilə aprel döyüşlərində şücaət göstərmiş həmyerlimiz zabit Mirqamət Bağıyev ilə görüş keçirilmişdir.

9 May Qələbə Gününün hər il yüksək təntənə ilə qeyd olunması ənənə halını almışdır.

Adını daşıdığı şəhid Mahir Kərimovun ad günü Poladlı kənd tam orta məktəbində təşkilatın yaxından səyi ilə hər il anılır.

Sağlamlığını erkən itirmiş gənclər də Abdulhəsən müəllimin diqqətindən yayınmır. Onların toy məclislərində yaxından iştirak edir və bir baba



nəvazişi göstərir.

Abdulhəsən Ağayev yaxın ərəfədə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə dövlət xidmətinin Qobustan Rayon bölməsinin rəisi İxtiyar Əhmədovla Nabur kəndində olmuş və Böyük Vətən müharibəsinin veteranı Şahalıyev Məhəmmədlə görüşmüşlər. Onun həyat tərzi ilə yaxından tanış olmuşlar. Rayon İcra Hakimiyyətinin Başçısı Adil Məmmədovun salamını ona yetirərək, sərəncama əsasən "Fəxri Fərman"ı ona təqdim etmişlər.

Abdulhəsən Ağayev həm də YAP Qobustan Rayon təşkilatının Poladlı kəndi üzrə sədridir.

O, bu işin də öhdəsindən bacarıqla gəlir. Məhz buna görə də kənddə demək olar ki, gənclər həvəslə YAP-nın sıralarına qəbul olunurlar.

A. Ağayev gördüyü işlərin bəhrəsinin almışdır. Dəfələrlə Qobustan Rayon İcra Hakimiyyətinin Başçısının və YAP Qobustan Rayon Təşkilatının "Fəxri fərman"larına layiq görülmüşdür. Veteran hərəkatında fəal iştirakına görə "30 il" yubiley medalı ilə təltif edilmişdir.

Ən sevindirici hal odur ki, A. Ağayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabının 27 may 2019-cu il tarixli sərəncamа əsasən "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018) yubiley medalına layiq görülmüşdür.

Təşkilatın işində həmişə Rayon İcra Hakimiyyətinin Başçısı A. Məmmədovun yaxından köməkliyi hiss olunur. Bu yazının müəllifi kimi həmişə şahid olmuşam ki, hörmətli başçı A. Məmmədov tədbirlərdə Abdulhəsən Ağayevin işini önə gətirmiş və gənclərə onu örnək kimi göstərmişdir.

A.Ağayev gözəl ailə başçısıdır. Bu qonaqlı-qaralı evdə ömür-gün yoldaşı Laizə xanım ona həmişə dayaq olmuşdur. Onların nəvələri- Elmin və Murad "N"saylı hərbi hissələrdə müddətdən artıq xidmət edirlər.

Abdulhəsən müəllim hər gün bu şərəfli işin başındadır. Deyir ki, yaşım ötsə də amalım xalqıma xidmətdədir. Bu arada aşağıdakı bir bənd şeir yerinə düşür.

Ağrıtmayan ürək ola, baş ola,
Can sirdaşım torpaq ola, daş ola.
Arzuların sayı qədər yaş ola,
Ömür verən xidmətinə xalqımın.

Məhəmməd Bayramov,
Qobustan rayonu

# HƏYAT EŞQİ GÜCLÜ OLAN İNSAN

Veteranlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətin və hər bir dövlət orqanının, hər bir namuslu Azərbaycan vətəndaşının borcudur.

H.Əliyev





Ulu öndərin qayğıkeşliklə söylədiyi bu tövsiyyəsinə Nizami rayon Veteranlar Təşkilatında da sədaqətlə əməl edilir. Təşkilata rəhbərlik edən Yəhya Ağayevin təşkilatçılıq bacarığı sayəsində rayonda mütəmadi tədbirlər keçirilir. Köməyə ehtiyacı olan veteranlara qayğı göstərilir, xəstəliyi olan veteranlar müayinə və müalicə üçün Veteranlar xəstəxanasına göndərilir. Rayonda müntəzəm olaraq veteranlarla gənclərin görüşləri təşkil olunur. Nizami rayon icra hakimiyyətinin keçirdiyi ictimai-siyasi tədbirlərdə də rayon veteranlar təşkilatının üzvləri fəal iştirak edirlər. Keçirilən bütün bu tədbirlər gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm əhəmiyyətə malikdir.

Ədliyyə Nazirliyinin Silahlı Qüvvələri veteranı olan Ağayev Yəhya Ağaqulu oğlu 12 dekabr 1942-ci ildə Cəlilabad rayonunda dünyaya göz açıb. 1962-1965-ci illərdə Sovet Ordusu sıralarında həqiqi hərbi xidmətdə olmuşdur.

1967-ildə Ukrayna Respublikasının Dnepropetrovsk şəhərində Daxili İşlər Orqanlarında iqtisadi cinayətkarlığa qarşı mübarizə üzrə inspektor vəzifəsində xidmət etmişdir. Xidmət etdiyi zaman 10, 15, 20 illik qüsursuz xidmətlərinə görə hər üç dərəcəli medallarla təltif olunmuşdur.

1967-ildə Ukrayna Respublikasının Dnepropetrovsk şəhərində Avtonəqliyyat texnikumunu, 1974-ci ildə Dnepropetrovsk Ali Partiya məktəbində təhsil almışdır.

1983-ci ildə isə Kiyev Xalq Təsərrüfatı institunu bitirmişdir. 1988-ci ildə köçürülmə yolu ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sərəncamında olmuşdur.

1993-cü ilə qədər İslah Əmək Müəssisəsində işləmişdir.

1991-1993-cü illərdə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Silahlı Qüvvələri veteranıdır.

1993-cü ildən 1996-cı ilə qədər Azərbaycan Respublikasının Müdafiə Nazirliyində Xüsusi şöbənin rəisi vəzifəsində işləmişdir.

2000-ci ildən etibarən Nizami Rayon Yeni Azərbaycan Partiyasının üzvüdür.

2008-2009-cu illər Nizami Rayon Veteranlar Təşkilatının məsul katibi, eləcə də 2010-cu ildən Nizami Rayon 70 saylı tam orta məktəbdə Hərbi Rəhbər vəzifəsində işləmişdir. İşlədiyi müddət ərzində dəfələrlə Rayon İcra Hakimiyyəti Başçısı tərəfindən,YAP Nizami Rayon Təşkilatı tərəfindən,Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri tərəfindən və Təhsil Nazirliyi tərəfindən Fəxri Fərmanlar və İlin Ən Yaxşı Hərbi Rəhbəri adına layiq görülərək 1-ci dərəcəli Diplomla təltif olunmuşdur.

1966-cı ildə Böyük Vətən Müharibəsi qələbəsinin 20 illik yubiley medalı, 1977-ci ildə qüsursuz xidmətə görə 3-cü dərəcəli yubiley medalı, 1982-ci ildə 15 ildə qüsursuz xidmətə görə 2-ci dərəcəli yubiley medalı, 1982-ci ildə yüksək uğurlarına görə Əlaçı Milis Döş nişanı, 1987-ci ildə 20 ildə qüsursuz xidmətə görə 1-ci dərəcəli yubiley medalı, 2011-ci ildə Təhsil Nazirliyi tərəfindən yüksək uğurlara görə medalı, 2015-ci ildə Respublika VT-nın sədri tərəfindən yüksək səviyyədə qazandığı uğurlara və nəaliyyətlərə görə "Veteran Həmrəylik" medalı, 2016-cı ildə Qarabağ Müharibəsi Əlilləri Veteranları və Şəhid Ailələri İB tərəfindən "Vətən Naminə" medalı, 2017-ci ildə Respublika VT tərəfindən "General Həzi Aslanov" yubiley medalı, 2018-ci ildə isə "30 il" yubiley medalı, 2018-ci ildə Azərbaycan Respublikasının Vətən Müharibəsi veteranları İB tərəfindən Müharibə veteranı medalı və 2018 -ci ildə Azərbaycan Respublikasının Vətən Müharibəsi veteranları İB tərəfindən Milli ordunun yaranmasının 100 illik medalı ilə təltif edilmişdir.

Azərbaycan Milli Dövlətçiliyinin inkişafındakı nümunəvi xidmətlərə və ümummilli lider Heydər Əliyev ideyalarına sədaqətinə görə "Siyasət və Gerçək Uğur" Araşdırmalar Mərkəzinin təsis etdiyi Fəxri Diplomuna layiq görülmüşdür.

Ədliyyə Nazirliyinin Silahlı Qüvvələri Veteranı, ehtiyatda olan mayor Yəhya Ağayev 2010-cu ildən Nizami Rayon Veteranlar Təşkilatının sədridir. O, gənclərimizə örnək olan şərəfli həyat yolu keçib. O, uzun müddət hüquq-mühafizə orqanlarında ləyaqətlə çalışıb. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak edib. O, həm də Qarabağ müharibəsi veteranıdır.

Onu da qeyd edək ki, Nizami Rayon Veteranlar Təşkilatının gördüyü işlər Respublika Veteranlar Təşkilatının son hesabat yığıncağında da müsbət qiymətləndirilib. Yəhya müəllimin əməyinin belə yüksək dəyərləndirilməsi onu dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində daha da coşqun fəaliyyət göstərməyə ruhlandırır. Qəlbində həyat eşqi güclü olan bu insanın bundan sonra da Vətənə sədaqətlə xidmət göstərəcəyinə inanırıq.

Ədalət Salman,
Azərbaycan Jurnalistlər
Birliyinin üzvü

# ƏMƏKSEVƏR VETERAN AİLƏSİ

Mən ailənin üzvləri ilə oxucuları tanış etməkdə əsas məqsədim onların Vətənə, torpağa bağlılığını göstərməkdir. Göründüyü kimi Vətənə sədaqətin zirvəsində ailənin oğlu Elşən dayanır, Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuş, yaralanmış və doğma kəndlərinə alnı açıq, üzü ağ olaraq, 2-ci qrup əlil kimi qayıtmışdır. O yenə mübarizəni davam etdirir, ailəsinə bağlıdır, ona torpaqların becərilməsində yaxından kömək edir.

Ailənin bütün üzvləri torpağa bağlıdır, onu becərməkdən, ərzaq bolluğu yaratmaqdan həzz alırlar. Ailəvi fermer təsərrüfatının başçısı Əlvan Məmmədovla həmsöhbət oluram. Ona ilk sualım belə oldu:

- Əlvan kişi sizi torpağa bağlayan nədir, axı bu sahədə çalışmaq daha böyük səy, fiziki qüvvə tələb edir?

Əlvan Məmmədov cavabında çox səmimi oldu. - Bilirsiniz, Məmmədağa müəllim, hələ qədimdən torpaqla bağlı belə bir deyim vardır. Torpaq anadır, becərsən səni yedizdirər. Torpaq qorunarsa, qan tökülərsə-Vətəndir! Onu da bildirmək yerinə düşərdi ki, Möhtərəm Prezidentimiz cənab İlham Əliyev Lənkəran şəhərində keçirdiyi müşavirədəki çıxışında kəndlərdə yaşayan insanlar qarşısında vəzifələr qoymuşdur. Torpağın məqsədə müvafiq əkilib becərilməsi, xüsusən Cənub bölgəsində subtropik meyvə bağlarının salınması, tütün, çay və çəltiyin becərilməsi əsas istiqamət kimi göstərilmişdir. Mən də ailəmlə birlikdə ölkə rəhbərinin tapşırıq və tövsiyələrini əsas götürərək kənd təsərrüfatı məhsullarının istehsal edilməsinə önəm verirəm.

Arıçılıqla məşğul oluruq, 5 hektar sahədə çəltik əkmişəm, 300 hektardan artıq torpaq sahəsində noxud, mərci, lərgə, digər dənlilər və buğda becərib məhsulunu toplamışam. 15 hektar torpaq sahəsində isə bostan və hər növdən tərəvəz əkib becərmişəm. Heyvandarlığa da



başlamışam, cins mal-qara almaqdan ötrü dövlətdən maliyyə yardımı almışam. Bu sahədə çalışanlara dövlətimizin başçısı cənab İlham Əliyev xüsusi qayğı göstərir.

Qeyd edək ki, Əlvan Məmmədov rayonumuzun xeyriyyəçilərindən biridir. Yaşadığı Xıl kəndində nüfuz sahibidir. Gənclərin vətənpərvərlik, əməyə məhəbbət ruhunda tərbiyə olunmasında fəal iştirak edir. Xıl kəndində ilk veteran təşkilatının sədridir. Respublika Veteranları Təşkilatının üzvüdür.

Torpaq onu becərənin dostu, əlinə silah alıb qoruyanın isə Vətənidir!

Əlvan Məmmədova bu şərəfli əmək yolunda uğurlar diləyirik!

***Məmmədağa Şiriyev,***
***Masallı Rayon Veteranları Təşkilatının sədri,***
***Qarabağ müharibəsi veteranı***

AZƏRBAYCAN VETERANI

# Xalqımızın igid oğlu Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədov...

Bakı dənizçilik məktəbinin muzeyində iri bir portret asılıb. Qaynar baxışlı, gənc bir matrosun şəkli...Xalqımızın igid oğlu Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədov...

Qafurun ömrü qəfil çaxan şimşəyə bənzəyir. Onun göstərdiyi qəhrəmanlıq insanların xatirində hər zaman yaşayacaq. Nəsillər bu igid gəncin adını hörmətlə yad edəcək, tükənməz şöhrətini nəğmələrdə, dastanlarda əbədiləşdirəcəkdir.

Qafur Nəsir oğlu Məmmədov 1922-ci ildə Bakı şəhərində anadan olmuşdur. Hələ məktəbdə oxuyarkən qəlbindən dənizçi olmaq həvəsi keçib. O, Xəzərin mavi sularında saatlarla yorulmaq bilmədən üzərdi. Üzgüçülük yarışlarında həmişə birincilik qazanardı. Öz çevikliyi, ağlı, qayğıkeşliyi ilə yoldaşları arasında seçilərdi. Qafur həmişə dostlarına ümidlə, inamla deyərdi ki, orta təhsilini bitirən kimi dənizçilik məktəbinə gedəcəkdir. Lakin dənizçilik məktəbinə daxil olmağa hələ çox var idi. O, atası Nəsir Əziz oğlunun məsləhəti ilə mətbəəyə işə girdi, çapçı şagirdi oldu. Az müddətdə çapçılıq sənətini mənimsədi.

Yoldaşlarına münasibətdə xoşrəftarlı, həlim, işdə, zəhmətdə, bacarıqda isə od parçası olan Qafuru dostları çox sevirdilər. O, Buzovnanın qumlu sahillərinə tez-tez yürüşlər təşkil eləyərdi, burda üzgüçülük yarışları keçirərdi...

Qafur dənizçilik məktəbi barədəki arzusunu unutmurdu. Lakin bu, mümkün olmadı. Böyük Vətən müharibəsinin başlanması buna mane oldu.

1941- ci ilin avqust ayında on doqquz yaşlı Qafur Məmmədov könüllü cəbhəyə getdi. Ata-anası ilə vidalaşarkən dedi: «Ömrum, həyatım məni böyüdüb ərsəyə çatdıran Sovet Vətəninə məxsusdur. Mən öz xalqımı, öz Vətənimi qorumağa gedirəm. And içirdm ki, düşməni amansızcasına əzəcək və doğma yerlərdə qəhrəman kimi qayıdacağam, döyüşlərdə həlak olsam da, qəhrəman kimi həlak olacağam!».

Doğma oğullarından ayrılmaq ata-anaya çətin idi. Onlar bilmirdilər oğulları davadan qayıdacaq, ya qayıtmayacaq...

Döyüşə girməzdən əvvəl Qafur Məmmədov lazımı hazırlıq keçdi. Sonra öz yoldaşları ilə birlikdə Krıma gəldi. Qara dəniz üzərində faşist təyyarələri uçurdu.

Qafurgilin gəmisi işıqlarını söndürüb gecə Krıma yollandı.

... Bir dəfə axşamüstü Qafurun rəhbərlik etdiyi bölmə düşmən səngərini atəşə tutmuşdu. Döyüşmək ehtirası bu qorxu bilməyən əsgəri, qəhrəmanlığa doğru aparırdı. Qafurun çiyninə güclü bir zərbə dəydi. İgid döyüşçünün beynindən belə bir fikir keçdi. «Yaralanmışam». Bu məqamda Qafur öz döyüş dostlarından geri qala bilməzdi. Yadına Suvorovun məşhur aforizmi düşdü: «Özün məhv ol, amma yoldaşını xilas et». Bu sözləri o dünən növbəti döyüşdən qabaqkı qısa söhbət zamanı siyasi rəhbərdən eşitmişdi. Fikirləşdi ki, necə olur-olsun, bir az da irəliləmək lazımdır... Bir az da... Axı, düşmən səngərinə çatmağa cəmi bir neçə addım qalırdı. Yaxında qumbara partladı, çalpanaqlar vıyıltıyla ətrafa səpələndi. Güllə yağışı da ara vermirdi. Qafur son dəfə gücünü toplayıb irəli atıldı. Qəhrəmanlıqla dolu həmin günlərdə dəniz piyadaçıları saysız-hesabsız şücaət göstərdilər.



Ağır və çətin vuruşlarda Qafur özünü hazırlıqlı və cəsur bir döyüşçü kimi göstərdi. Bir dəfə «dil» gətirmək lazım idi. O, bir alman yefreytorunu tutub qərargaha gətirdi. Faşist yefreytoru öz həyatından qorxduğu üçün olduqca gərəkli və lazımlı hərbi sirləri verdi.

Faşist təyyarəçilərinin yollar boyu günahsız qadınları və uşaqları necə qırdığını Qafur öz gözləri ilə görmüşdü.

Sevastopolun qəhrəman müdafiəçiləri düşmənə qarşı mətanətlə vuruşurdular. 365-ci batareyanın topçuları bir neçə gün, döyüş sursatı qurtaranacan, düşmən piyada qoşunlarının aramsız hücumlarına sinə gərdilər. Hitlerçilər batareyanın tutduğu mövqeyə soxulanda isə batareyanın yaralı komandiri, baş leytenant İ. Pyanzin radio ilə bizim artilleriyaya xəbər göndərdi ki, onun dayandığı istiqamətdə atəş açsınlar.

Bütün sevastopollular rəşadətlə vuruşurdular.1942-ci ilin mayında Sevastopol cəbhəsinə Azərbaycandan nümayəndələr gəldi. Bu vaxtadək dəniz piyadaçısı Qafur Məmmədovun şəxsi hesabında ondan artıq məhv edilmiş hitlerçi var idi. Doğma torpaqdan gələnlərlə görüş onun, eləcə də digər azərbaycanlı əsgərlərin mübarizə əzmini daha da möhkəmlətdi. Qafur Məmmədova Bakıdan kağız gəldi. Anası Püstəxanım yazırdı: «Arzum odur ki, tezliklə səni bağrıma basım. Ayrılığın ömrünü qısalt, qayıt, amma qələbə ilə qayıt».

Qafur Məmmədov ömrünün son anına kimi anasının bu sözlərinə əməl etməyə çalışdı. Sevastopolu müdafiə edərkən o, əsil hünər göstərdi. Yaralanandan sonra da igid döyüşçü hospitala düşdü. Müalicə uzun çəkmədi, sağalandan sonra Qafur yenə cəbhəyə qayıtdı.

Sevastopol müvəqqəti olaraq düşmən əlinə keçdikdən sonra qızıl donanmaçı Qafur Məmmədov Şimali Qafqazda 323-cü dəniz piyada batalyonunun sıralarında vuruşdu. Qafur Məmmədovun yenidən cəbhəyə gəlməsindən 8 ay keçirdi. Dəniz piyadaları inadla vuruşurdular. Qızğın döyüşlər gedirdi. Geri çəkilməyə yer yox idi. Güllələr, qumbaralar qurtarmışdı. Qafur avtomatdan ancaq və ancaq zəruri hallarda atəş açırdı. Cibində yalnız bir güllə saxlamışdı. Bu güllə Qafurun özü üçün idi: axı, dənizçilər əsir düşməyi, təslim olmağı sevmirdilər...

1941-ci ilin oktyabrında Tuapsenin şimal-qərbində qızğın döyüşlər başlandı. Düşmən heç bir itki ilə hesablaşmadan var qüvvə ilə dənizə soxulmağa çalışırdı. Amma burada da Sevastopolda olduğu kimi hitlerçilərin yolunu mərd və mətin dəniz piyadaçıları kəsmişdilər.

Oktyabrın 13-də düşmən cəbhə boyu güclü kəşfiyyat aparmağa başladı. Oktyabrın 14-də isə hücuma keçdi. Taktiki-cəhətdən vacib bir yüksəkliyin müdafiəsini Qara dəniz dənizçilərinin 323-cü əlahiddə batalyonuna tapşırmışdılar. Onun tərkibinə Sevastopolun müdafiəçiləri də daxil idilər. Qafur Məmmədov da burda vuruşurdu. O, rota komandiri Zinovi Sinetskinin rabitəçisi idi. Rabitəçi olmaqla bərabər eyni zamanda hamı ilə birgə düşmən hücumlarına sinə gərirdi. Oktyabr ayının 18-də və 19-da Qafur Məmmədov 13 alman avtomatçı və minamyotçusunu məhv etdi....Ardı-arası kəsilməyən döyüşlərin üçüncü günü idi. Bu müddət ərzində dənizçilər sayca üstün olan düşmənin 19 hücumunun qarşısını aldı. Sovet rabitəçiləri faşist generalının cərimə batalyonu komandiri ilə söhbətinə qulaq asa bildilər. Bu söhbətdən məlum oldu ki, faşist cərimə batalyonundan nəyin



bahasına olur-olsun günün axırınacan 120,8 yüksəkliyini ələ keçirmək tələb edilirdi. Bu yüksəkliyi isə ordumuz faşistlərin əlindən təzəcə almışdı. Bizim Qara dəniz döyüşçülərimiz düşmən mövqeyinə qarşı əks-hücum hazırladılar. Qafur Məmmədov öz rota komandiri baş leytenant Sinetski ilə yanaşı addımlayırlı. Onlar ön cərgədə hücum edirdilər. Yüksəkliyin ətəyindəki sıx kolluğa da birinci onlar gəlib çıxdılar. Bu zaman bir faşist ağac arxasında gizlənərək zabit Sinetskini nişan aldı. Bu, Qafurun gözündən yayınmadı. İgid dənizçi özünü itirmədi. Avtomatın tətiyini çəkdi, amma atəş açılmadı. Güllə tabı tamam boş idi. Avtomatı yenidən güllə ilə doldurmaq üçün vaxt lazım idi. Hitlerçi isə artıq Sinetskini nişan almışdı. Nişan alan faşisti qabaqlayıb komandiri xilas etmək lazım idi. Cəsur rabitəçi: - Komandir, özünü gözlə! - deyib cəld irəli atıldı. Faşist güllləsi Qafurun köksünə sancıldı. Komandir onu qolları üstünə alıb dedi: «Qafur, dostum!..»

- Ölürəm, yoldaş komandir... Məni buraxın, düşməni haqlayın.

Baş leytenant sevimli dostunun üzündən öpüb: - «Biz səni unutmarıq, Qafur,-dedi.-Biz sənin hayıfını düşməndən alacağıq. Bizim intiqamımız dəhşətli olacaq».

Qafurun ağızdan-ağıza gəzən son sözləri rota üzvlərinin hamısında düşmənə intiqam hissini daha da alovlandırdı. Qafur Məmmədovun yoldaşları onun qatilini haqlayıb məhv etdilər. Hitler ordusu hissələrinə olduqca böyük zərbə vurdular. Faşistlər bu döyüşdə nailiyyət qazana bilmədilər.

Qafur Məmmədovu silah dostları dənizin lap sahilində, daşlı-qayalı bir yerdə dəfn etdilər. Onun qəbri yanından ötüb döyüşə yollanan əsgərlər əllərindəki silahları sinələrinə daha möhkəm sıxırdılar.

Rizvan Zeynalov
Sovet İttifaqı Qəhrəmanı
Qafur Məmmədov
Böyük Vətən müharibəsində
sovet xalqının qələbəsinin
30 illiyinə, Bakı 1975

# Gənc leytenant öz dəstəsini ilk dəfə faşistlər üzərinə Qafqaz dağlarında apardı...

***Müharibədə həlak olan qəhrəmanların taleyində qəribə bir oxşarlıq var. Sanki dünya işığının, insan sevincinin daimi axarına, ahənginə təkcə onlar cavabdehmişlər.***

Bu hiss az qala onların özlərini görmək, özləri haqda düşünmək imkanlarını da əllərindən alıb. Yoxsa müharibə alovlarını bu qədər nifrətlə tapdalamaz, gənc və təravətli həyatlarını bu alov dalğalarının görünməz sahilinə bu qədər cürətlə atmazdılar. Qəribədir ki, onlar hər tapşırıq alanda haraya getdiklərini çox yaxşı bilirdilər. Bilirdilər ki, qarşılarında zülmət uçurumları var, heç nəyə, heç kimə acımayan ölüm kahaları var. Bilirdilər ki, nağılların bu gedər-gəlməz yolları onları günəşə, sevgiyə, sabaha həsrət qoya bilər. Bilirdilər... Lakin yenə bu yolu tükənməz həvəslə, sarsılmaz inamla gedir, ölümlə döyüşə belə cəsarətlə, mərdanəliklə atılırdılar. Onlar, sözün əsil mənasında, öz torpaqlarının övladıydılar. Buna görə də torpağın fövqünə yüksəldilər, yorulmaz, məğrur qartal qanadlarıyla insan adının, insan eşqinin ən əzəmətli zirvəsinə ucaldılar.

Ümumi məqsədin yolunu birgə addımlasalar da bu gəncliyi xasiyyətcə bir-birindən ayıran fərqlər çox idi. Həzi Aslanovu möhtəşəm qranit qayalar kimi təsəvvür ediriksə, Mikayıl Ələkbərov uzaq üfüqlərdən bizə boylanan kövrək ulduzları xatırladır. 67-ci artilleriya diviziyasının təşkilatçısı və komandiri, qvardiya polkovniki Həbibulla Hüseynov özünün dərin ağlı və təmkini ilə necə unudulmazdırsa, Şəmsulla Əliyev də dost və tanışlarının hafizəsində coşqunluğu, qaynarlığı, dəliqanlılığı ilə həmişəlik iz salmışdır.Sarsılmaz qətiyyət və inam Şəmsullanın ömürlük yoldaşıydı. Ağlına batan, ürəyinə yatan hər işi görürdü, görməyə nail olurdu. Onun nəzərində insan—sürət və çeviklik deməkdi. Bu keyfiyyətlər isə Şəmsullanın ömrünün aylarına, illərinə səpilmişdi.

1915-ci ildə Dərbənd şəhərinin ziyalılarından olan Feyzulla müəllimin evində dünya işığına iki parlaq göz açıldı. Körpəyə atasının ad oxşarı olan Şəmsulla adını verdilər. Ağlının, fikrinin gözü dünyaya açılanda o, həm də, atasının peşə davamçısı olmağı qət etdi. Doğma şəhərdə inqilabçı M. Abbasovun adını daşıyan məktəbin yeddinci sinfini bitirdi. 1927-ci ildə atası onu Quba şəhərindəki pedaqoji məktəbə gətirdi. İki ildən sonra Şəmsulla Dərbəndə qayıdıb təhsilini buradakı pedaloji məktəbdə davam etdirdi. 1931-ci ildə Dəliçoban kənd yeddi illik məktəbinə təyinat alıb, burada qəlbinin bütün hərarətilə işə başladı. Gənc müəllim həmyerlilərinin övladlarına tarix fənnindən dərs deyirdi. Boş vaxtlarında kənddə savadsızlığın və dini qalıqların ləğv olunmasında fəal iştirak eləyirdi. Şəmsulla gələcək günlərin vüsətini görür, nəfəsini duyurdu. Buna görə özünü həmin günlərə hazırlamağı da unutmadı. Arzu yolu onu Mahaç-Qala Dövlət Pedaqoji İnstitutunun fizika fakültəsinə gətirdi. Təhsil illəri bir-birindən fərəhli keçdi.

Yenə təyinat, yenə doğma şəhər. Bu dəfə Dərbənd rayon komsomol komitəsində ona uçot şö'bəsinin müdiri vəzifəsini tapşırdılar. O illərin komsomolçuları Şəmsullanın yığıncaqlardakı odlu, hərarətli çıxışlarını indi də yaxşı xatırlayırlar.

Şəmsulla 1939-cu ildə bir neçə ay rayon hərbi komissarlığında şö'bə rəisi oldu. Yenidən müəllimliyə qayıtdı. Onu Məhrağa kənd yeddi illik məktəbinə müdir göndərdilər. 1940-cı ildən isə ehtiyac olduğu üçün Dərbənd rayon ZDS İcraiyyə Komitəsində işə keçirildi.

Böyük Vətən müharibəsi başlananda Dağıstan Muxtar Respublikası 110 mindən çox oğul və qızını azğın düşmənlə mübarizəyə göndərdi. Onların mətin sıralarında müxtəlif millətlərin nümayəndələri — avarlar, ləzgilər, kumuklar, tabasaranlar, tatlar, azərbaycanlılar və başqaları vardı. Sinəsində Babək ürəyinin coşqun dalğaları çağlayan Şəmsulla Əliyev həmin sıralara çoxdan can atırdı. Lakin quldur gülləsindən ayağında şikəstlik qaldığı üçün hərbi xidmətdən azad edilmişdi. Belə bir oğul Vətənin ağır günlərinin adi seyrcisimi olmalıydı? Rayonun hərbi komissarlığı onun xahişini yalnız 1942-ci ilin yanvarında yerinə yetirdi. Şəmsulla əvvəlcə Azərbaycan SSR Ali Soveti adına Bakı Ali Ümumqoşun Komandirliyi Məktəbinin kursantı oldu. Nəzəri məşğələlərdə, təlimlərdə özünü çalışqanlığı ilə fərqləndi, hərbi biliklərə, hərbi texnikaya «yaxından bələd oldu.



1942-ci ilin sentyabrında məktəbi kiçik leytenant rütbəsi ilə bitirən Şəmsulla Dərbəndə — ailəsilə qısa müddətli görüşə gəldi. Sonra qohum-əqrəba, dost-tanış onu cəbhəyə yola saldı.

Gənc leytenant öz vzvodunu faşistlər üzərinə ilk dəfə Qafqaz dağlarında apardı. Qafqaz onun üçün müqəddəs inam qalasıydı. Bu müqəddəsliyə faşist ayaqları toxuna bilməzdi.

Şəmsulla əlində süngü düşmən üzərinə şığıyanda bu heybətli dağların məğrur qartallarına bənzəyirdi. O, sürətli uçuşuyla dostlarını sıldırımlar, yarğanlar üzərindən adladır, coşqun çaylardan keçirirdi. Döyüşçü hünərilə komandir burada da tezliklə diqqəti cəlb etdi.

1942-ci ilin payızında xalqlarımızın yekdil, vahid əzminə çevrilən Sovet Ordusu düşmənin Terek sahillərinə qədər soxulan burnunu əzdi. Naursk, Alpatovo, İşşorsk stanitsaları bir-birinin ardınca qanlı faşist caynağından qoparıldı. Bu döyüşlərdə Şəmsulla Əliyevin komandirlik etdiyi pulemyotçular vzvodu böyük iradə və mərdlik nümunəsi göstərdi, dəfələrlə komandanlığın təşəkkürünü aldı. Şəmsulla Əliyev leytenant rütbəsinə yüksəldi, rota komandiri tə'yin olundu.

O, 1942-ci ilin soyuq dekabr günlərində döyüş yoldaşlarını, başqa hissələrimizlə birlikdə, Mozdok üzərinə yürüşə aparırdı. Onlar faşistləri səngərlərdən çıxarıb qovur, lakin düşmən yeni mövqelər tutub daha şiddətlə müqavimət göstərirdi. Əsas ağırlıq Şəmsulla Əliyevin pulemyotçular rotası üzərinə düşürdü. Rota düşmənin sipərlərini dağıdır, atəş nöqtələrini susdurur, avtomatçılarımızın hücumuna şərait yaradırdı. Dekabrın ortalarında faşistlər Tersk rayonunda Şəmsullagilin daxil olduğu 59-cu atıcı diviziyanın hücumunu dayandıra bildi.

Düşmənin aramsız artilleriya atəşi hissələrimizə göz açmaq imkanı vermirdi. Qarşıdakı təpələrdə əlverişli mövqe tutan faşist pulemyotçuları isə bu vəziyyətdən istifadə edir, döyüşçülərimizi bircə addım da irəli buraxmayırdılar.

Bu həlledici dəqiqələrdə pulemyotçular rotasının komandiri döyüş tapşırığı aldı. Necə olur-olsun təpələri tutub faşist pulemyotçularını susdurmalı!

Terekə doğru çox da dərin olmayan dərə uzanırdı. Şəmsulla rotanı dərə ilə apardı.

Döyüş ərazisindən xeyli kənara getsələr də düşmənin sol cinahı arxasına keçə bildilər. Onlar dərədən çıxıb, bir neçə sıçrayışla irəli atıldılar.

Düşmən xəbərdar olana kimi döyüş mövqeyi tutub onlara şiddətlə atəş açdılar. Faşistlər bu gözlənilməz hücumdan özlərini itirdi. Bu döyüşdə Şəmsullanın başçılıq etdiyi rota 200-dən çox faşisti məhv etmiş, 15 düşməni əsir tutmuş, xeyli döyüş sursatı qənimət almışdı. Göstərdiyi igidliyə görə Şəmsullanı «Qırmızı ulduz» ordenilə, döyüşçüləri müxtəlif orden və medallarla təltif etdilər.

Döyüşdən-döyüşə bərkiyən mərd Azərbaycan oğlu Mozdok yaxınlığında daha bir hünər göstərdi. Onun komandirlik etdiyi rota növbəti tapşırığı yerinə yetirərkən həddən artıq irəliyə getmiş, əsas hissələrimizdən təcrid olunmuşdu. Lakin düşmənin bütün cəhdlərinə baxmayaraq, cəsur pulemyotçular mühasirə vəziyyəti yaranmasına imkan vermədilər. Üstün qüvvələr qarşısında mətinliklə dayandılar, kömək gələnə kimi faşist sıralarını xeyli seyrəltdilər. Ancaq bu döyüşdə cəsur komandir sol qolundan ağır yaralandı və müalicə olunmaq üçün hospitala göndərildi. İndi onun sinəsini «1-ci dərəcəli Vətən müharibəsi» ordeni də bəzəyirdi.Şəmsullanın cəbhə həyatının bir sıra maraqlı səhifələri ailəsinə və qardaşı Abdulməcidə göndərdiyi məktublarda əks olunur. Onlardan birində oxuyuruq:«Bu məktubu Krasnodar ölkəsindən—Kuban çayı sahilindən göndərirəm. Ağır döyüşdən çıxmışıq. Yenə çiynimdən yüngül yara almışam. Lazaretdə təzəcə sarıyıblar. Yaxşı ki, sümüyə toxunmayıb, yüngüldür.

Yaram çox da incitmir, qəlbən rahatam, çünki bu gün mühüm yaşayış məntəqələrimizdən birini düşməndən azad etmişik. Heyif ki, igid bir pulemyotçumu itirdim. Canlara dəyən oğlandı. «Maksim» pulemyotu ilə onlarla faşisti yerə sərmişdi. Öz ehtiyatsızlığı üzündən vuruldu. Mən dərhal onu əvəz etdim, düşmən yuvasını dağıtdıqca «ura» qışqırır, döyüşçülərimizi ruhlandırırdım. Birdən necə oldusa, çiynimi isti bir şey yandırdı. Yaralandığımı hiss etdim, ancaq atəşə ara vermədim. Sonra avtomatı götürüb ayağa qalxdım, «Vətən uğrunda» deyə rotanı hücuma apardım. Bir neçə dəqiqədən sonra yaşayış məntəqəsi bütünlüklə əlimizə keçdi». Məktubda göstərilənlər 1943-cü il aprelin 12-də baş vermişdi. Komandanlıq Şəmsullanın bu hünərini «Qırmızı bayraq» ordeni və kapitan rütbəsilə qiymətləndirdi. 1943-cü il mayın 13-də isə Kommunist partiyası sıralarına qəbul etməklə onu batalyon komandiri müavinliyinə irəli çəkdilər.

Şəmsullanın cəbhə yolu qəhrəmanlıq zirvəsinə ucaldığı bir vaxtda qırıldı. Bu ağrı cəsur silah yoldaşlarının ürəyində azğın düşmənə qarşı sonsuz nifrətə çevrildi. Elə nifrət ki, onun qarşısında qanlı faşist yuvası diz çökdü, faşist orduları şərəfsiz bayrağını ayaqlar altına atdı. Od baxışlı, dağ vüqarlı igidin qisməti isə hörmət və məhəbbət zirvələri oldu. Kommunist partiyamız, hökumətimiz igid zabitin döyüş fəaliyyətini yüksək qiymətləndirdi. SSRİ Ali Sovetinin Rəyasət heyəti 16 may 1944-cü il tarixli fərmanı ilə cəbhə komandanlığının döyüş tapşırığını ləyaqətlə yerinə yetirdiyinə görə Əliyev Şəmsulla Feyzulla oğluna Sovet İttifaqı Qəhrəmanı adı verdi. Bu xəbər onun doğma şəhəri Dərbəndə də gəlib çatdı. Hələ 1944-cü ilin mart ayında qəhrəmanın vaxtilə məktəb direktoru işlədiyi Dəliçoban kəndindəki sovxoza onun adını verdilər. Sovxozun mərkəzi meydanlarından birində, hündür postament üzərində büstünü ucaltdılar. Bundan əlavə Şəmsulla Əliyevə Dərbənd şəhər ölkəşünaslıq muzeyində ayrıca bölmə həsr olunmuşdur. Burada qəhrəmanın tərcümeyi halını, döyüş fəaliyyətini əks etdirən şəkillər və maraqlı materiallar saxlanılır. Təkcə Dərbənd rayonunda deyil, Dağıstan Muxtar respublikasının hər yerində Şəmsulla Əliyevin xatirəsi əziz tutulur. Dağlar ölkəsinin başqa qəhrəmanları sırasında onun da hünəri gəncliyə həmişə nümunə göstərilir.

Qəhrəmanlıq ölmür, qəhrəmanlıq yaşayır, şeirlərə, nəğmələrə çevrilir.

Şəmsulla Əliyev döyüş günlərində Kerçdəki Volkov adına metallurgiya zavodunun yaxınlığında dəfn olunmuşdu. Müharibədən sonra onun qəbrini Mitridat dağının uca zirvəsinə köçürdülər. İndi o yerə yolu düşənlər uca abidənin mərmər lövhəsi üzərində bu sözləri oxuyur: «Sovet İttifaqı Qəhrəmanı, mayor Şəmsulla Feyzulla oğlu Əliyev burda dəfn olunmuşdur».

Yox, «dəfn olunmuşdur» sözləri cismani ölümə aiddir. Qəhrəmanlar öz rəşadətləri ilə yaşayır, həyatın əbədi yollarında addımlayırlar...

***Məmməd Kazım***
***Bakı, 1975-ci il***

AZƏRBAYCAN VETERANI

# Çiy su orqanizm üçün faydalıdır



İnsanların əksəriyyəti qaynanılmış suyun orqanizmə ziyanlı olduğunu düşünərək onu çiy halda içir. Su qaynadıqda tərkibindəki kalsium, maqnezium, karbonat və digər minerallar buxarlanır.

Həkim-fitoterapevt Esmira Zeynalova bu barədə deyib: "Su nə qədər çox qaynayırsa, bir o qədər ağırlaşır və nəticədə çətin mənimsənilir. Daim qaynadılmış su içənlərin dəri rəngi solğun, saçları cansız olur. Mütəxəssislərin fikrincə, çiy su içənlərin fiziki aktivliyi daha yüksəkdir. Görünür, bir dəfədən artıq qaynayan suyun "ölü su" adlandırılması heç də təsadüfi deyil. Su 60 dərəcə qaynayandan sonra onun tərkibində olan minerallar parçalanır və orqanizmdə fəsad yaradır. Gün ərzində hər kiloqram bədən çəkisi üçün 30 milliqram çiy su qəbul edilməlidir".

Onun dediyinə görə, suyu qaynatmadan içmək orqanizm üçün daha faydalıdır. Qaynanmış su içməkdən çəkinənlər unutmamalıdırlar ki, təmizləmə prosesindən keçmiş suyun qəbulu orqanizmə müsbət təsir göstərir və müxtəlif filtrlər vasitəsilə həmin problemi aradan qaldırmaq olar.

Sağlam və yetkin kişilərdə bədən ağırlığının 60, qadınlarda isə 50 faizinin sudan ibarət olduğunu nəzərə alsaq, maye qəbulunun əhəmiyyətini daha aydın dərk etmək olar.

## Xərçəngin qarşısını alan tərəvəz

Alimlər xərçəng şişlərinin qarşısını ala bilən meyvə-tərəvəzlərin üzərində eksperimentlərini davam etdirir.

Oqayo Universitetinin alimləri son təcrübələrində belə nəticəyə gəliblər ki, hamıya yaxşı tanış olan pomidor - tomat onkologiyaya qarşı vasitədir.

Siçanlar üzərində aparılmış eksperimentdə onları ultrabənövşəyi şüalarla şüalandırmış, daha sonra qidalarına pomidor tozu qatmışlar.

Nəticələr göstərib ki, qidasında pomidor olan siçan qrupunda şişlər 50% azalmışdır.

Digər pomidorsuz qalan qrupda isə şişlər böyümüşdür.

Analizlər göstərib ki, xərçəngə qarşı təsirli olan maddə pomidorun tərkibində olan karotinoidlərdir.

Məhz bu maddə tərəvəzi al qırmızı rəngə boyayır. Bu maddə insanın dərisinin altında toplanaraq, ultrabənövşəyi şüaları udur.

Eləcə də pomidorda olan likolin də xərçəngin profilaktikasında müsbət təsir edir.



## Bu qidalardan uzaq durun!

İnsan yaşı artasa da cavan görünmək istəyir. Orqanizmin, dərinin daha cavan görünməsi üçün də ilk növbədə düzgün və sağlam qidalanmaq lazımdır. Hər gün zərərlərini bilmədən istehlak etdiyimiz qidalar vaxtından əvvəl yaşlanmağımıza səbəb olur. Buna görə də sağlamlığımız üçün həmin qidalardan nə qədər tez imtina etsək bir o qədər yaxşıdır.

Türkiyəli dietoloq Melis Destereci vaxtından əvvəl yaşlandıran qidaların siyahısını təqdim edib:

Dietoloqun sözlərinə görə, bir qidanın qlisemik indeksi nə qədər yüksək olarsa, qandakı şəkərin miqdarı da bir o qədər yüksək olar: "Bu da yaş-



lanmanı sürətləndirən əsas faktorlardan biridir. Yediyimiz və içdiyimiz qidalar bizim əhvalımıza, gündəlik enerjimizə birbaşa təsir edir".

Bəs vaxtından tez qocalmağa səbəb olan qidalar hansılardır? Araşdırmalar onu göstərir ki, tərkibində ağ un və şəkər olan bütün qidalar bu siyahıya daxildir.

Şəkər: Hüceyrə yaşlanmasının ilkin səbəbi şəkər istehlakıdır. Bu zaman bədənin tarazlığı pozulur, dəri altı və orqan yağlanması əmələ gəlir.



Doymuş yağlar: Doymuş yağlar kimyəvi tərkibində hidrogen atomu daşıyır. Bu da infarkt riskini daha da artırır. Bu qrupa əsasən heyvan mənşəli yağlar daxildir: marqarin, quyruq yağı və s. Bu yağlar bəndəki toksinlərin artmasına səbəb olur və beləliklə daha tez yaşlanmaya gətirib çıxardır.

Duz: Gün ərzində 5 qramdan artıq duz istehlak etmək dərinin vaxtından əvvəl yaşlanmasına səbəb olaraq, bədənin su balansını pozur.

Şəkərli və qazlı içkilər: Tərkibində yüksək miqdarda şəkər olduğu üçün qandakı şəkər balansını pozur və orqanlara zərər verir. Bədəndəki kalsiumun səviyyəsini azaldaraq sümük əriməsinə gətirib çıxardır.

***Qlisemik indeksi aşağı olan qidalar:***

*Süd və süd məhsulları*
*Qatıq, meyvəli yoqurt*
*Yaşıl səbzələr və meyvələr*

## E L A N

***İkinci dünya müharibəsinin iştirakçılarının yaxınlarının nəzərinə!!!***

Azərbaycan xalqının qəhrəman oğul və qızları tarixin səhifəsinə adlarını qızıl hərflərlə yazıb, azərbaycanlı adını iftixarla daşıyıblar. Onlar daima xatırlanmalı, əbədi yaşamalıdırlar. Respublika Veteranlar Təşkilatı tərəfindən İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 75 illiyi ərəfəsində müharibədə həlak olmuş və ya sonradan vəfat etmiş, eləcə də, sağ veteranların tanıdılması istiqamətində müntəzəm işlər aparılır.

Hörmətli həmvətənlərimiz, bu vətənpərlik missiyasında bizə kömək göstərməklə yaxınlarınızın tanıdılmasına yardımçı olacaqsınız. İkinci Dünya müharibəsində iştirak etmiş şəxslər haqqında informasiya və onların müharibə dövrünə (və ya müharibədən sonra) aid foto şəkillərini aşağıda göstərilən ünvana göndərməyinizi xahiş edirik.

**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi 34**
**e-mail: az.veteran@mail.ru**
**Tel: 012 4923681**
**Fax: 0124927884**

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Azərbaycan Beynəlxalq Bankı ASC-nin Səbail filalı**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN, 1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**

**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

**Allah rəhmət eləsin**

**Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti görkəmli ictimai xadim Sultan İsrafil oğlu Məmmədovun vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:*** *Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:*** *Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34*
***Əlaqə telefonu: 012*** *440-21-08*
***e-mail:*** *az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi*** *- 3486*
***Dövlət qeydiyyat tarixi*** *- 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*